*Şəfa DADAŞOVA*
shefadadashova.sd@gmail.com

# TAP VƏ TANAP LAYİHƏLƏRİNİN TÜRKİYƏ ONLAYN MEDİASINDA İŞIQLANDIRILMASI

**РЕЗЮМЕ**

В статье рассказывается о роли ТАП и ТАНАП в экономических отношениях между Турцией и Азербайджаном и его освещении в турецких онлайн-СМИ. Для этого в статье анализировались статьи о проекте TAP и TANAP, которые были опубликованы на разных сайтах. Интернет-СМИ Турции всегда были сосредоточены на этих проектах и отражают процесс их реализации.

***Ключевые слова:*** Проект, СМИ, Европа, газопровод, экономика, сайт

**SAMMARY**

The article is about the role of TAP and TANAP in the economic relations between Turkey and Azerbaijan and its coverage in Turkish online media. Here have been investigated the articles about TAP and TANAP projects on various websites. Generally the online media system of Turkey has always been focused on these projects and the process of their implementation.

***Keywords:*** Project, media, Europe, gas pipeline, economy, site

XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra onu rəsmi şəkildə müstəqil dövlət kimi ilk dəfə Türkiyə Cümhuriyyəti tanıdı. Ortaq tarixi köklər, etnik bağlılıq, dil və din birliyi bu iki türk dövlətini bir-birinə illər keçdikcə daha da yaxınlaşdırmışdır.

Hazırda beynəlxalq arenada Azərbaycanın ən yaxın müttəfiqi məhz Türkiyədir. Hər iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə də əlaqələr yüksələn xətlə inkişaf edir. "Bu gün iki ölkə arasında ticarət həcmi təxminən 5 milyard dollardır. Hər iki ölkənin hədəfi 2023-cü ilə qədər ticarət həcmini 15 milyard dollara çatdırmaqdır" (7).

Müasir dünyada iqtisadiyyatın gücü dövlətin gücünü müəyyən edən ən əsas amillərdən biridir. Həyata keçirilən beynəlxalq və regional layihələrdə hər bir dövlət öz iqtisadi maraqlarından çıxış etməyə çalışır. Bu amil Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində də özünü göstərir. Həm Azərbaycan, həm də Türkiyə hökuməti reallaşdırılan layihələrin hər birində öz maraqları ilə yanaşı regionun da inkişafına töhfə verməyə çalışır. "Hər iki dövlət arasında mövcud olan siyasi və iqtisadi münasibətlər onları regional geosiyasətin əsas faktorlarına çevirmişdir. Həyata keçirilən enerji layihələri Azərbaycanın dəstəyi və fəal iştirakı sayəsində mümkün olub. Türkiyədən keçən neft və qaz kəmərləri vasitəsilə Azərbaycan həm enerji resurslarını dünya bazarına çıxarır, həm də Mərkəzi Asiya ölkələrinin təbii sərvətlərinin daşınması üçün tranzit rolunu oynayır. Azərbaycan və Türkiyə arasında qarşılıqlı inam və etibar, dostluq və qardaşlıq belə qlobal layihələrin həyata keçirilməsinə imkan verən əsas amillərdir. Onlar Avropanın enerji təhlükəsizliyinin mühüm elementləridir" (1, 7).

Son illərdə Azərbaycan və Türkiyə arasında reallaşdırılan iki böyük proyekt həm regionun, həm də Avropanın enerji ilə təmin edilməsində olduqca mühüm rola malikdir. Söhbət TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Boru Kəməri) layihələrindən gedir. Bu layihələr Türkiyə və Azərbaycan iqtisadiyyatı ilə yanaşı digər region ölkələrinin də iqtisadiyyatı üçün olduqca əhəmiyyətlidir.

"Ecovision" jurnalı aprel nömrəsində qeyd edir ki, 2018-ci ildə Azərbaycanın təbii qazını Türkiyəyə və qardaş ölkədən də Avropaya nəql edəcək Transanadolu (TANAP) qaz boru kəməri ilə ilk qaz nəqli gözlənilir" (2, 22).



CBS nəşriyyatının Azərbaycan-Türkiyə münasibətlərinə həsr etdiyi məqalələr toplusunda sözügedən məsələ ilə bağlı vurğulanır: "Azərbaycan – Türkiyə münasibətlərində iki ölkənin media qurumları arasındakı əlaqələr xüsusi bir istiqamət təşkil etməkdədir. Bir sıra Türkiyə telekanallarının Bakıda fəaliyyət göstərən nümayəndəlikləri ölkəmizin ictimai-siyasi həyatının ətraflı işıqlandırılmasında yaxından iştirak edir. Bütün bu nailiyyətlər hər iki tərəfi daha sıx və səylə fəaliyyət göstərməyə həvəsləndirir" (1, 8). Türkiyənin aparıcı sayt, portal və xəbər agentlikləri Azərbaycanla iqtisadi əlaqələrin inkişafını geniş şəkildə işıqlandırır.

Son zamanlar TAP və TANAP layihələri böyük əhəmiyyət kəsb etdiyi üçün Türkiyə mediası tərəfindən yaxından izlənilir. Türkiyədə böyük nüfuza malik olan dövlət televiziyası TRT öz rəsmi internet səhifəsində həm türk, həm də Azərbaycan dilində bu layihələri işıqlandırır. Sayt yazır: "Qlobal bir layihə olan TANAP, yəni Trans Anadolu Təbii Qaz Boru Xətti Layihəsinin addımları sürətlənib. TANAP-ın yola düşməsiylə, Bakı-Tbilisi-Qars dəmiryolu və bu kimi layihələr Azərbaycan və Türkiyənin mövqeyi və bölgədəki strateji əhəmiyyəti daha da artacaq. Bu istiqamətdə əzm, qətiyyət və siyasi iradə hər iki ölkədə də vardır" (7).

Türkiyə mediasında xüsusi çəkiyə malik "Hüriyyət" qəzeti də Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrə, əsasən də TAP və TANAP layihələri ilə bağlı yazılara geniş yer verir. Hürriyet.com saytı qeyd edir ki, TANAP layihəsi Türkiyənin Gürcüstanla sərhəddindən başlayaraq Ərdahan, Qars, Ərzurum, Ərzincan, Bayburt, Gümüşhanə, Girəsun, Sivas, Yozqat, Qırşəhər, Ankara, Əskişəhər, Bursa, Ədirnə olmaqla 20 şəhərindən keçəcək Yunanıstana qədər uzanacaq. TAP layihəsi isə Azərbaycan qazını Türkiyədən keçməklə Avropaya daşıyacaq (6).

Bunlarla yanaşı, hürriyət.com saytı iqtisadiyyat üzrə peşəkar insanların da TAP və TANAP layihələri ilə bağlı fikirlərini dərc edir və bu proyektlərin müsbət tərəfləri ilə bağlı oxuculara geniş məlumat verir. Sayt layihələrin həyata keçirilməsi prosesini də yaxından izləyir. Təməlqoyma mərasimindən tutmuş boru xəttinin çəkilişlərinə qədər müxtəlif məlumatlar internet səhifəsində yerləşdirilir.

TANAP layihəsinin açılışı bir müddət Türkiyə mediasının əsas xəbəri kimi manşetə çıxarılır, həm Türkiyə, həm də Azərbaycan prezidentlərinin çıxışlarına geniş yer verilir. Türkiyənin əsas xəbər portallarından biri olan sabah.com.tr "Tarixi TANAP proyekti açıldı" başlığı altında geniş məqalə dərc edir. Bu məqalədə açılış mərasimindən müxtəlif statistik rəqəmlər də oxuculara təqdim edir.

Digər bir internet portalı olan habertürk.com TANAP layihəsinin açılış mərasimini "Son dəqiqə" başlığı ilə dərc edir. Bu sayt tədbirdən şəkilləri oxuculara təqdim edir və TANAP layihəsinin Türkiyə və Azərbaycana qazandıracağı iqtisadi mənfəətdən söhbət açır. Sayt yazır ki, torpaq üzərində uzunluğu 850 kilometr olan boru xəttinin 19 kilometri Mərmərə dənizindən keçəcək. Bundan başqa saytda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev, Ukrayna prezidenti Petro Proşenko, eləcə də Serbiya Prezidenti Aleksandr Vuçiçin çıxışlarına geniş yer verilib.

Bu gün müasir dünyada onlayn medianın nüfuzu artmaqdadır. Milyonlarla oxucu informasiyanı məhz internet mediasından əldə edir. Bu səbəbdən də dünyada baş verən əsas hadisələr onlayn mediada geniş işıqlandırılır. TAP və TANAP layihələri iqtisadi baxımdan böyük əhəmiyyət daşıdığı üçün Türkiyə mediasının daim nəzər nöqtəsində qalır.

Yuxarıda bu ölkələnin əsas internet saytlarının TAP və TANAP layihələrini nə cür işıqlandırdığı barədə müəyyən məlumatları qeyd etdik. Bundan əlavə, Türkiyənin ixtisaslaşmış iqtisadiyyat saytları vardır ki, onlar bu layihələri ekspert və ixtisaslaşmış jurnalistlər vasitəsi ilə daha dəqiq analiz edirlər. Bu saytlar təkcə xəbər verməklə kifayətlənmir, iqtisadi layihələrin müsbət və mənfi cəhətlərini də tədqiq edərək oxucuya təqdim edirlər. Belə saytlara misal olaraq bloomberght.com, fortuneturkey.com, ekopat.com, turkparasi.com və digərlərini göstərə bilərik. TAP və TANAP layihələri Türkiyə iqtisadi həyatında mühüm rol oynadığı üçün bu saytların hər biri adıçəkilən proyektlərlə bağlı zaman-zaman müxtəlif yazılar dərc edirlər. Təkcə bloombergth.com saytında TANAP layihəsi ilə bağlı 119 məqalə oxuculara təqdim olunub.

Bu yazılar arasında TANAP layihəsinin həm siyasi, həm də iqtisadi əhəmiyyətini önə çəkən bir çox maraqlı yazılara rast gəlmək mümkündür.



21

Fortuneturkey .com saytında da TANAP və TAP layihələri ilə bağlı xeyli sayda məlumat yayımlanır. Bu internet saytı bir sıra rəsmi şəxslərin və dövlət başçılarının layihə ilə bağlı fikirlərinə də geniş yer ayırır. Sayt Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı verdiyi məlumatı məqalənin başlığı kimi dərc edib: "Aliyev: TANAP-ın yüzde 72-si tamamlandı" (4).

Türkiyənin digər bir nüfuzlu internet portalı olan investing.com saytı da TAP və TANAP layihəsi ilə bağlı silsilə məqalələr dərc edir. Bu sayt həm Azərbaycanda, həm də Türkiyədə layihənin reallaşdırılması işlərini yaxından izləyir və baş verən istənilən hadisə ilə bağlı oxuculara məlumat verir.

Azərbaycanda olduğu kimi Türkiyə onlayn mediasında da böyük regional və beynəlxalq əhəmiyyətə malik TAP və TANAP layihələri geniş şəkildə işıqlandırılır. Bunun əsas səbəblərindən biri də oxucuların bu layihələrin həyata keçirilməsi ilə bağlı maraqlarıdır. Şübhəsizdir ki, bugünkü onlayn media oxucuların maraqlarını nəzərə alaraq fəaliyyət göstərir. Ümumiyyətlə, TAP və TANAP layihələrinin Türkiyə mediasında geniş şəkildə işıqlandırılması ictimaiyyətin bu layihələrə olan marağından irəli gəlir.

İnternet saytları layihələrlə bağlı baş verən istənilən hadisəni dərhal yayımlayıb oxucuları məlumatlandırmaqla yanaşı, prosesin gələcək inkişafı ilə bağlı proqnozlar verir və analizlər də aparır. Ümid edirik ki, Türkiyənin həm onlayn, həm də çap mediası istər TAP və TANAP layihələri, istərsə də gələcəkdə Türkiyə və Azərbaycan arasında reallaşdırılacaq digər əhəmiyyətli iqtisadi və siyasi layihələrin işıqlandırılması tendensiyasını davam etdirəcək.

## ƏDƏBİYYAT:


1. Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu), CBS nəşriyyatı, Bakı-2011
2. "Ecovision" jurnalı, №33, Aprel, 2018
3. www.blomberght.com
4. www.fortuneturkey.com
5. www.investing.com
6. www.hurriyet.com.tr/gundem/tanap-nedir-tanapin-acilimi-ne-40865921
7. www.trt.net.tr/azerbaycan/turkiy-v-avrasiya-gund-mi/2017/07/07/az-rbaycan-turkiy-laq-l-ri-son-25-ild-766489


***Elmi rəhbər dos.Vəfa İsgəndərova***